# Ali məktəblərdə Azərbaycan tarixinin tədrisində tələbələrin müstəqil işlərinin təşkilinin fəlsəfi əsasları

**Sevda Məmmədova**
*Gəncə Dövlət Universitetinin müəllimi*
**E-mail:** sevda.m.@mail.ru

**Rəyçilər:** ped.ü.e.d., prof. M.M. Əmirov,
ped.ü.f.d., dos. T.S. Paşayev

**Açar sözlər:** ali məktəb, Azərbaycan tarixi, fəlsəfi əsas, müstəqil işlər, təlim, tərbiyə, cəmiyyət, insan, informasiya axını

**Ключевые слова:** высшая школа, история Азербайджана, философская основа, обучение, общество, человек, поток информации

**Key words:** high school, history of Azerbaijan, philosophical basis, training, society, person, Information flow

Yaşadığımız informasiya əsrinin özünəməxsus xüsusiyyəti var. Bu xüsusiyyəti səciyyələndirən əsas cəhət ondan ibarətdir ki, informasiya-biliklərin həcmi sürətlə artır, insanın aktiv hafizəsi həmin bilikləri qəbul edə bilmir. Deməli, insanın zaman koordinatının şaxələndirilmiş, sürətləndirilmiş informasiya axınına adaptasiya oluna bilməməsi qarşıya bir sıra problemlər qoyur. Bu problemlərin həlli insanın və cəmiyyətin inkişafı arasındakı fərqlə bağlıdır. Tarix ədəbiyyatından məlum olur ki, əsrlər boyu cəmiyyətin inkişafı ilə ayrıca götürülmüş bir insanın keçdiyi inkişaf arasında bir əlaqə və uyğunluq olmuşdur. XXI əsrdə cəmiyyət elə yüksək inkişaf tempi götürmüşdür ki, insan ona nail olmaqda, onu haqlamaqda çətinlik çəkir. Müşahidələr göstərir ki, insan da öz ömrü ərzindəki inkişaf surətini müəyyən dərəcədə artıra bilmişdir və bu nöqteyi-nəzərdən əcdadlarından intellektual səviyyəsinə görə əsaslı surətdə fərqlənir.

Tarixi mənbələrdən aydın olur ki, ibtidai icma, quldarlıq və feodalizm cəmiyyəti dövrləri yerində sayan çox az dəyişən cansıxıcı dövrlər olmuşdur. Bir kotanın kəşfinə qədər bir neçə milyon nəsillər dəyişlibsə, hər bir insan ömründə nə kimi bir inkişaf olub? XXI əsrdə nəinki bir insan ömründə, hər gün, hər saat neçə-neçə ixtiralar, kəşflər olur, möcüzələr yaranır.

Məlum olduğu kimi müasir insan min il bundan əvvəlki insandan fizioloji cəhətdən heç nə ilə fərqlənmir. Sual olunur dəyişən nədir? Dəyişən cəmiyyətdir. Adəm övladı bir bioloji varlıq olaraq deyil, hətta bir şüurlu varlıq olaraq deyil, bir sosial varlıq kimi dəyişmişdir.

Araşdırmalar göstərir ki, cəmiyyətin inkişafı, insanın inkişafını qabaqlayır. Burada ən böyük problem insanın inkişaf tempini, cəmiyyətin inkişaf tempinə uyğunlaşdırmaqdır. İrəli sürdüyümüz bu funksiyanı təhsil sistemi yerinə yetirməlidir. Həyatın inkişaf dinamikası təhsilin ilkin əsaslandıran sonra dar ixtisaslaşmanın yüksək səviyyədə aparılmasını tələb edir.

İnformasiya bolluğu şəraitində insanın fəal hafizəsi ancaq dar ixtisas sahəsini əhatə edə bilər.

Deməli, cəmiyyətin inkişafına nail olmaq üçün təhsilin səviyyəsini yüksəltmək lazımdır. Təhsil insanların müxtəlif peşələr üzrə ixtisaslaşmasını təmin etməlidir. Bu proses elə həyata keçirilməlidir ki, müxtəlif qruplara ayrılmış insanların əldə etdikləri nailiyyətləri əlaqələndirmək və bir mərkəzə toplamaq mümkün olsun.

Dünyanın inkişaf etmiş ölkələri təhsilin optimal modellərinin axtarışındadırlar. Bu baxımdan tələbələrə tarixin tədrisində tarix elmi ilə bağlı əsas bilik və bacarıqların dərindən

öyrədilməsinin fəlsəfəsinin müəyyənləşdirilməsi zərurəti meydana çıxır.

Elmin, maarifin, təlim-tərbiyənin cəmiyyətdə yerinin, rolunun, funksiyalarının müxtəlif istiqamətlərdə öyrənilməsi ilə əlaqədar XX əsrin 40-cı illərində ABŞ-ın Kolumbiya Universitetində təhsil fəlsəfəsi kimi bir tədqiqat sahəsi yaranmışdır. XXI əsrin başlanğıcında təhsil mütəxəssisləri təhsilin fəlsəfəsi ilə bağlı elmi-praktik konfranslar keçirir, kitab və məqalələr nəşr etdirirlər.

Müşahidələr göstərir ki, sivil cəmiyyət yarandığı andan təhsil mütəxəssisləri həmin dövrlərdə mövcud olmuş təhsil sistemlərini başa düşməyə, eyni zamanda təhsilin dəyər və ideallarını müəyyənləşdirmək üçün fəlsəfəyə müraciət etməyə məcbur olmuşlar. Əlbəttə, bu işdə pedaqogika nəzəriyyəçiləri ilə filosofların əməkdaşlığı sayəsində təhsil fəlsəfəsi adlı tədqiqat sahəsi yaranmış və bu proses təkmilləşməkdə davam edir. Məhz bunun nəticəsidir ki, 1990-cı ildə Londonda keçirilən Beynəlxalq konfransda "Təhsil filosoflarının Beynəlxalq Assosiasiyası" təsis edilmiş, 1998-ci ildə isə Ümumdünya fəlsəfə konqresi təhsilin problemlərinə və təhsilin fəlsəfi məsələlərinə həsr olunmuşdur.

Azərbaycanın da daxil olduğu keçmiş Sovetlər İttifaqında marksizm-leninizm ideologiyasını həmin dövrün təhsil fəlsəfəsi kimi qəbul etdirmişlər. Təhsil fəlsəfəsi tədqiqatları ABŞ-da çox inkişaf etmişdir. Həmin məktəblər aşağıdakılardan ibarət olub: idealizm, praqmatizm və ya instrumentalizm, neotemizm, proqressivizm, perennializm, essensializm, eksistensializm və s.

Azərbaycanda təhsil sisteminə dövlət xüsusi qayğı ilə yanaşır. 1999-cu ildən 2013-cü ilədək olan dövr ərzində dövlətimiz 16 adda sənəd qəbul etmişdir. Həmin sənədlər əslində ümumtəhsil məktəblərinə ünvanlanmışdır. Həqiqətən də ümumtəhsil məktəbləri sistemi kökündən dəyişib, yeniləşib, təkmilləşib. Orta ixtisas və ali təhsil haqqında əsaslı islahatların keçirilməsinə çox böyük ehtiyac var. Ölkənin ali təhsil müəssisələri təhsilin keyfiyyəti, elmi-tədqiqat, kadr hazırlığı, elmi-texniki tərəqqi ilə bağlı köklü islahatların keçirilməsini səbirsizliklə gözləyirlər.

Təhsil fəlsəfəsinə həsr edilmiş əsərlər içərisində S. Xəlilovun "Təhsil sistemi: nəzəriyyə və praktika" adlı kitabı təhsil fəlsəfəsi ilə bağlı çox problemlərə aydınlıq gətirir. Bu baxımdan müəllif yazır: "Təhsil insanlara öz əcdadlarının əsrlər boyu əldə etdiyi təcrübə və biliklərə bir neçə il ərzində yiyələnmək imkanı verir. Yaşadığı zamanın tələbləri səviyyəsində durmağa, hər dəfə sıfırdan başlamaq deyil, özündən əvvəlki nəsillərin işini davam etdirməyə insan yalnız təhsil sayəsində müyəssər olur.

Yeni biliklərin əldə edilməsi təhsilin yox, elmin funksiyasna daxildir. Təhsil isə artıq məlum olan bilikləri geniş kütlələrə və ya məqsəddən asılı olaraq əhalinin müəyyən qrupuna çatdırmaq üçün təşkil olunmuş geniş miqyaslı – ictimai prosesdir... Təhsil öz səviyyə və yönümündən asılı olaraq, üç müxtəlif məqsədə xidmət edə bilər.

Birincisi, bilik və təcrübə bu və ya digər fəaliyyət sahəsində istifadə olunmaq, praktikada tətbiq edilmək üçün əldə edilir. İkincisi, bilik və təcrübə başqalarına öyrətmək üçün əldə edilir. Üçüncüsü, bilik və təcrübənin səviyyəsini yüksəltmək üçün, yeni biliklər əldə etmək üçün lazım olan fəaliyyət sahəsi – elmi işdə ilkin təhsil mərhələsini tələb edir" (1, s. 12-13).

Təhsilin və tərbiyənin fəlsəfəsi haqqında ilk fikir və mülahizələrə böyük yunan filosofu Platon "Dövlət" əsərinin 4-cü kitabında toxunmuşdur. Bu baxımdan dahi mütəfəkkir yazırdı: "...Uşaqlar ilk çağlardan tələb olunan qaydalarla oynayarlarsa, musiqi sənəti sayəsində qanunlara alışacaqlar və başqa uşaqlardan tam fərqli olaraq onlarda bu vərdişlər artacaq və dövlətdə nə isə düz olmadıqda onu düzəltməyə də təsir edəcək... kiçik görünən hər şeydə belə onlar davranış norması tapacaqlar...

— Bu normalar hansılardır?

...kiçiklər böyüklər yanında susmalı, onlara yer göstərməli, yanlarında ayaq üstə qalmalı, valideynlərini saymalıdırlar; bundan sonra görünüşə aid olan özəlliklər gəlir: saçını qırxmaq, paltar, çəkmələr və s. (2, s. 131-132).

Digər yunan filosofu, müəllimlər müəllimi Aristotel də özünün "Politika" əsərində gənclərin təlim-tərbiyəsi məsələlərinin dövlətçiliyə xidmət etdiyini önə çəkmişdir. O, gənclərin təhsilinə diqqət yetirilməsinin dövlətçiliyin qorunub saxlanılması və möhkəmləndirilməsinin əsas dayaqlarından biri olduğunu əsaslandırmışdır. Müəllimlər müəllimi Aristotelin "Politika" əsərinin səkkizinci fəsli cəmiyyətin təhsil və tərbiyəsi məsələlərinə həsr olunub. Aristotel yazırdı: "Gənclərin tərbiyəsinə qanunvericinin özəl diqqət yetirməli olduğuna kimsə şübhə etməz. Belə ki, hansı dövlətdə o yoxdur, dövlət quruluşu zərər çəkir. Tərbiyə dövlət quruluşuna uyğun olmalıdır; hər bir dövlət quruluşuna xoş olan xarakter, adətən, quruluşun saxlanılmasına və ilk başlanğıcdan onun qurulmasına xidmət edir, məsələn demokratik xarakter – demokratiyanın oliqarxiya xarakteri isə — oliqarxiyanın, qurulmasına xidmət edir və həmişə yaxşı xarakter yaxşı quruluş növünü təmin edir" (3, s. 247).

Aritsotel gənclərə ilkin təlim-tərbiyənin verilməsini zəruri hesab edərək qeyd edirdi ki, bütün bunlar fəzilət, ruhunda aparılmalıdır. Dövlətdə tərbiyə ümumi olmalıdır. Bütün təlim-tərbiyə dövlətin inkişafına kömək etməlidir. Tərbiyəyə qayğı ümumi olmalıdır, hər kəsin özəl işi olmamalıdır, təəssüf ki, indi hər kəs öz uşağına özəl yolla və ağlına gələni öyrədir. Ümumi mənafe olan hər işə birgə qayğı göstərilməlidir. Hər kəs istədiyi tərbiyəni övladına istədiyi qaydada verməməlidir. Bütün vətəndaşlar dövlətə məxsusdur. Onların hər biri dövlətin hissəciyidir. Deməli, hər bir hissəciyə qayğı, təbiidir ki, bütövə qayğıdan irəli gəlməlidir.

Aristotel qeyd edir ki, tərbiyə haqqında qanun olmalıdır və tərbiyə ümumi olmalıdır. Doğrudur. Tərbiyənin praktikası barədə fikir ayrılığı var: gənclərdə fəzilət inkişaf etdirmək və ən yaxşı həyata sahib olmaq üçün nə öyrədilməsində vahid fikir yoxdur; tərbiyənin məqsədi də – ağılın, yoxsa əxlaqi keyfiyyətin inkişafı məsələsi də aydınlaşdırılmamışdır.

Mütəfəkkir qeyd edir ki, ali tərbiyənin məzmunu xalq tərəfindən müzakirə edilməli qəbul edilməlidir. Filosof tövsiyə edir ki, həyatda çoxsaylı elm sahələri var. Onlardan gənclərə ən zəruri olanlar öyrədilməlidir.

E.ə. IV əsrdə yaşamış Aritsotel ali təhsil fənlərini – qrammatikanı, rəsmi, musiqini və gimnastikanı önə çəkir. Bu dörd fənnin insan həyatındakı rolunu səciyyələndirir.

Aritsotel qeyd edir ki, təhsil alanlara faydalı fənlər də öyrədilməlidir – məsələn, onlardan biri savadlanmaqdır. O, fiziki tərbiyəni, vərdiş tərbiyəsini önə çəkir. Rəsm isə ruhu gözəlləşdirir. Musiqi həm dincəlmək, həm mədəniyyət, həm şənlənmək, həm də əylənmək vasitəsidir.

Pedaqoji, psixoloji və fəlsəfi ədəbiyyatların problem baxımından analitik təhlili göstərdi ki, təhsilin məqsədi insanı öz dövrü üçün yararlı, zamanının tələblərinə cavab verən, xüsusi hazırlanmış insana çevirməkdir. Müxtəlif dövrlərdə mütəfəkkirlər təhsilin məqsədini öz dövrlərinin tələblərinə uyğun istiqamətə yönəltmişlər. Məsələn, idealistlərə görə, təhsil insanların fiziki sağlamlığını möhkəmləndirməli, peşə hazırlığını tamamlamalı, estetik və yaradıcılıq qabiliyyətlərini inkişaf etdirməli, məhəbbətin dərk olunmasını, ailə quruculuğuna hazırlanması və onun qorunması, xarakterin formalaşdırılmasını təmin etməlidir. Eləcə də həyatda lazım olacaq biliklərin möhkəmləndirilməsi məntiqi, yaradıcı və tənqidi təfəkkür formalarının inkişafına və dini əqidənin yaranmasına və möhkəmlənməsinə motiv yaradır.

İdeal odur ki, daim təkmilləşməyə can atır. İdeal müəllim tələbənin təkmilləşməsinə,

özünün təkmilləşməsinə daimi diqqət yetirir. Fikrimizcə, ali məktəbdə tətbiq olunan müstəqil işlər təlim metodu kimi əsas dəyərlərin qazanılması prosesini motivləşdirir.

Nəticə olaraq deyə bilərik ki, məqalədə ali təhsil müəssisələrində tələbələrin müstəqil işlərinin fəlsəfəsini müəyyənləşdirməyə cəhd etmişik. Yəni insanın inkişaf tempini cəmiyyətin inkişaf tempinə bərabərləşdirməkdir. Bu funksiyanı yüksək səviyyədə təşkil edilmiş təhsil sistemi həyata keçirə bilər. Müasir təhsil fəlsəfəsinin əsas qayəsi təhsilin ilkin əsaslarından sonra dar ixtisaslaşmanın yüksək səviyyədə aparılmasından keçir. Məhz fəlsəfəsinin bu tələbənin təhsil sisteminə tətbiqi həm ölkəmizin, həm də ümumilikdə cəmiyyətin inkişafına motiv yaradır.

**Məqalənin aktuallığı.** Azərbaycan tarixinin tədrisində tələbələrin müstəqil işlərinin təşkilinin fəlsəfi əsaslarının müəyyən edilməsi öz aktuallığı ilə fərqlənir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə ali məktəblərdə Azərbaycan tarixinin tədrisində tələbələrin müstəqil işlərinin təşkilinin fəlsəfi əsasları işlənmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalə gənc tədqiqatçılar, doktorantlar və dissertantlar üçün faydalı olacaqdır.

## Ədəbiyyat


1. Xəlilov S.S. Təhsil sistemi: Nəzəriyyə və praktika. Bakı: Azərbaycan Universiteti nəşriyyatı, 1999.
2. Platon. Dövlət. Bakı: ADU-nun nəşriyyatı, 1999.
3. Aristotel. Politika. Bakı: ADU-nun nəşriyyatı, 1997.


**С. Мамедова**

## Философские основы самостоятельных работ студентов при обучении истории Азербайджана в Высших школах

## Резюме

В статье к аналитическому анализу были привлечены литературы, касающиеся задач философии образования. Также были определены роль и место философии образования в развитии общества, а также было установлено, что подача узких специализаций на высоком уровне является показателем развития общества.

**S. Mammadova**

## Philosophical bases of organization of students' individual works in teaching Azerbaijan history in high schools

## Summary

The article also analyses the literatures regarding the philosophical matters of education. Those literatures have been classified; the place and role of educational philosophy in societal development have been identified; and high level teaching of narrow fields of education along with primary education has been determined as the main indicator of societal development.